UOT:351.85
Nailə SÜLEYMANOVA
AMEA Füzuli adına Əlyazmalar İnstitutu
ilahiyyat üzrə fəlsəfə doktoru, dosent
dr_naile@yahoo.com
https://doi.org/10.61226/12.3.4.2023.7

MƏŞHUR ŞƏXSİYYƏTLƏRİN KATİBLİYİ

Xülasə: Azərbaycanın bir çox bölgələrində xəttatlıq xüsusilə sevilən bir sənət olmuşdur. Xəttatlıq sənəti daha çox məscidlərin nəzdindəki məktəblərdə digər dərslərlə bərabər tədris edilmiş və bu sənətin Azərbaycanda mahir ustaları da yetişmişdir. Azərbaycanda xəttatlığın Orta əsrlərdən başlayaraq daima inkişafda olduğunu bu günə qədər qorunub saxlanılmış əlyazma əsərlər göstərir. Azərbaycanda müxtəlif əsrlərdə yaşamış birçox məhşur şəxsiyyətlər təhsil aldıqları müxtəlif elm sahələri ilə yanaşı xəttatlığı da öyrənmiş və birçox hallarda əsərlərinə özləri katiblik etmişlər. AMEA Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilən bu misilsiz əlyazma əsər nümunələri ilk dəfə olaraq tədqiqata cəlb edilərək təqdim edilir.
Açar sözlər: Qədim, əsər, nüsxə, əlyazma.

Наиля СУЛЕЙМАНОВА
ЗНАМЕНИТЫЕ ПЕРЕПИСЧИКИ РУКОПИСЕЙ

Абстракт: Каллиграфия была особенно популярным искусством во многих регионах Азербайджана. Искусство каллиграфии в основном преподавалось в школах при мечетях наряду с другими уроками, в Азербайджане также готовились квалифицированные мастера этого искусства. Сохранившиеся до наших дней рукописные произведения свидетельствуют о том, что каллиграфия в Азербайджане постоянно развивалась со времен Средневековья. Многие известные личности, жившие в Азербайджане в разные века, помимо изучаемых ими различных областей науки, изучали каллиграфию и во многих случаях сами писали свои произведения. Эти уникальные образцы рукописей, сохранившиеся в институте рукописей НАНА, впервые представлены интересующимся исследованиями.
Ключевые слова : Древний, произведение, копия, рукопись.

Naila SULEYMANOVA
FAMOUS COPYSIST OF MANUSCRIPTS

Abstract: Calligraphy has been a particularly popular art in many regions of Azerbaijan. The art of calligraphy was mostly taught in schools near mosques along with other lessons, and skilled masters of this art were also trained in Azerbaijan. Manuscript works that have been preserved to this day show that calligraphy in Azerbaijan has been constantly developing since the Middle Ages. Many famous personalities who lived in Azerbaijan in different centuries studied calligraphy in addition to the various fields of science they studied and in many cases wrote their works themselves. These unique samples of manuscripts preserved in the Institute of Manuscripts of ANAS are presented for the first time to those interested in research.
Keywords: Ancient, work, copy, manuscript.

Mirzə Yusif Qarabağı Nersesov

Təqribən 1789-cu ildə Qarabağda Hadrutda anadan olmuşdur. Onun atası Nerses Cənubi Azərbaycanın Əhər şəhərindən idi. Rusiya-İran müharibəsi (1804-1813) zamanı əsir kimi İrana aparılan Mirzə Yusif islam dinini qəbul etmişdi. O, ərəb, fars və türk dillərini mükəmməl öyrənərək , sərkərdə Əmir xan Sərdarın divanında mirzəlik etmişdir. Mirzə Yusifin özünün etirafına görə, o, 18 il İranda Əmirxan sərdarın yanında qalaraq, farscanı mükəmmıl öyrənmişdi. O, bir müddət divanxana katibliyi vəzifəsində işləmiş, vaxtının müəyyən hissəsini də tarixə dair əsərlər mütaliəsinə sərf etmişdir. 1828-ci

ildə Türkmənçay sülh müqaviləsi bağlandıqdan Qarabağa qayıdır və bir müddət orada müəllimliklə məşğul olur [1,s.590; 2,s.4-5]. Mirzə Yusif 1854-cü ildə Kaspi və Şimali Dağıstan ölkələrinin komandanı general-leytenant knyaz Qriqori Orbelianinin yanında xidmətə girmiş və mütərcimlik etmişdir. Rusiya hərbi komandanlığı ilə Şamil arasında aparılan yazışmada Mirzə Yusifin yaxından iştirak etdiyi ehtimal olunur. Mirzə Yusif 1856-cı ildə Dağıstanda işlədiyi dövrdə Teymurxan-Şurada (indiki Buynakskda) Vaqif və onun müasirlərinin əsərlərindən ibarət bir ədəbi məcmuə də çap etdirmişdir. Dağıstanda üçillik xidmətdən sonra Qarabağa qayıdan Mirzə Yusif yenə də müəllimliklə məşğul olmuş və 1864-cü ildə orada vəfat etmişdir [3, s.10-11]. Mirzə Yusif Qarabağ tarixi haqqında fars dilində yazdığı "Tarixi Safi" adlı əsərin müəllifidir. Bu əsərdə onun həyatı haqqında özü tərəfindən yazılmış məlumat da vardır. Mirzə Yusifin milliyətinə gəldikdə isə, bir çox mənbələrdə milliyətcə erməni olduğu bildirilir. Lakin bu məlumatın doğru olmadığı və Mirzə Yusifin alban olduğu qənaətindəyik. Belə bir qənaətə gəlməkdə bir neçə səbəb var. Belə ki, Mirzə Yusif təkrar olaraq qeyd edək ki, Türkmənçay sülh müqaviləsindən sonra (1928) Qarabağa dönmüşdür. Həm o dövrdə və Mirzə Yusifin İrana aparıldığı dövrdə Qarabağda xristyan kilsəsi kimi Alban Həvari Kilsəsi mövcud və fəaliyyətdə idi. Alban Həvari Kilsəsi Katolikosunun iqamətgahı isə Gəncəsər monastırına yerləşmiş və 1836-cı ildək katolikosluğun mərkəzi və Alban katolikoslarının iqamətgahı olaraq qalmışdır. Bu səbəbdən Mirzə Yusif Qarabağa döndükdə ona təkrar xristyanlığı qəbul etməyi təklif edən o dövrün Qarabağ Alban Həvari Kilsəsinin mitropoliti Baqdasar Həsən Cəlal Dövlə olmuşdur. 1836-ci ildə "Üç kilsə" (Eçmiadzin) qriqoryan erməni kilsəsi Qarabağda (Kəlbəcərdə) olan Alban Həvari Kilsəsinin ləğv edilməsinə, kilsə ardıcılları və məbədlərinin isə özünün tabeliyinə verilməsinə nail olur. Bundan sonra isə Qarabağda yaşayan alban xalqının qriqoryan təlimi ilə ermənileşdirilməsi kimi geniş fəaliyyətə başlamışdır. Alban əhalinin bir hissəsi əksinə olaraq islamı qəbul etmişdir. Akademik Ziya Bunyatov mənbələrdə məlumat vermişdir [6, s.3-4]. Soyadına gəldikdə isə, atasının Nerses adını soyadı olaraq olaraq qəbul etmişdir. Nerses adı sonralar ermənileşsədə qədim alban adıdır.

Füzuli adına Əlyazmalar İnstitutunda Sədi Şirazinin (v.1292) "Gülüstan" əsərinin Mirzə Yusif Qarabaği tərəfindən köçürülmüş (B-433) bir nüsxəsi mühafizə edilir. Nüsxə Rusiya istehsalı olan (1828-ci il) sarımtıl su nişanlı kağızda qara mürəkkəblə fars dilində nəfis şikəstə-nəstəliq xətti ilə yazılmışdır. Mətn qırmızı mürəkkəblə çərçivəyə alınmışdır.1a vərəqində ortasında Mirzə Yusifin rus əlifbasının " N " həkk olunmuş şəxsi möhürü basılmışdır. Cildi qəhveyi rəngli dəri olub, üzərinə salbəqli şəmsə basılmışdır. İç tərəfdən cildə və 1a vərəqinə erməni dilində qısa cümlələr yazılmışdır. Son vərəqin yarısı kəsilmiş olsa da, üçkünc kollofon tamdır. Kollofonda Mirzə Yusifin katib olduğu qeyd edilmişdir. Abidə Əlyazmalar İnstitutunda Mirzə Yusifin xətti ilə yazılmış yeganə nüsxə olub, XIX əsrin ikinci yarısında Şuşada köçürülmüşdür. Əlyazma 16x21 sm ölçüsündə olub, 97 vərəq həcmindədir.

Bəhmən Mirzə bin Abbas Mirzə

Fətəli şahın nəvəsi, Azərbaycan hakimi və taxt-tacın varisi olmuşdur. 1847–1848-ci illərdə Bəhmən Mirzə Qacar (v.1844) saray çəkişmələrinin nəticəsində Qafqaza qaçaraq, ruslardan sığınacaq istəyir. Rus hökuməti onu şərəf və dəbdəbə ilə qarşılayaraq, ona şaha layiq təqaüd kəsir və Rusiyanın hər hansı bir yerində yaşamaq hüququ verir. Bir qədər tərəddüddən sonra Bəhmən Mirzə Şuşada yaşamaq istədiyini bildirir və onu öz hərəmləri, uşaqları, həmçinin şəsxi kitabxanası və xəzinəsi ilə birlikdə oraya göndərirlər. Bəhmən Mirzə oğlanlarına və nəvələrinə Rusiyanın ən yaxşı məktəblərində təhsili verir, özü isə siyasətdən uzaqlaşaraq, yaradıcılıqla məşğul olur. Onun yaradıcılığında Azərbaycan tarixinə dair əsərlər xüsusi yer tutur. Onun 31 oğlunun əksəriyyəti hərbçi olmuşdur. Bəhmən Mirzə Qacarın dövrümüzdə məlum olan ən önəmli əsəri "Şükürnameyi-şahənşahi" tarixi səlnaməsidir. Əsərdə Çingiz istilasından Ağa Məhəmməd şah Qacar qədər ayrı-ayrı hökmdarların Qafqaz xalqlarına etdiyu zülmdən, iqtisadiyyat və mədəniyyət sahələrində baş verən dəyişikliklərdən bəhs edilir. Daha sonra isə mətndə Qafqazın Rusiya ilə birləşməsinin əhəmiyyətini qeyd etmişdir. [,s.10-140]/ Bu əsərin əlyazma nüsxəsi (M-263) Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilir. Bu nüsxəni köçürən Bəhmən Mirzənin oğullarından biri olan şahzadə Abdüssəməd Mirzə olmuşdur. Əlyazma qara rəngli mürəkkəblə nəstəliq xətti ilə Rusiya fabrika istehsalı olan ağ rəngli qalın kağıza fars dilində yazılmışdır. Cildi karton üzərinə çəkilmiş göy rəngli məxmərdir. Əsər 1871-ci ildə Şuşa qalasında köçürülmüşdür. Əlyazma 18 x 27 sm ölçüsündə olub, 120 vərəq həcmindədir. 67b-68b vərəqlərində isə

Bəhmən Mirzə əsərin İmperator hökümətinə təşəkkür olaraq yazıldığı haqqında rus dilində əlavə yazmışdır.

Füzuli adına Əlyazmalar İnstitutunda şahzadə Abdussaməd Mirzənin xətti ilə köçürülmüş digər bir əsərdə mühafizə edilir. Bu əsər Mövlana Arifinin "Küy və Çovşan" (A-374) adlı əsəridir. Mənbələrdə Mövlana Arifinin təqribən XV əsrdə yaşamış Heratlı şair olduğu haqqında məlumat vardır. [4, s.37] Əlyazma qara mürəkkəblə nəstəliq xətti ilə Şərq istehsalı olan ağ rəngli ahərlənmiş kağıza fars dilində yazılmışdır. Mətn qırmızı rəngli mürəkkəblə ikili çərçivəyə alınmışdır. Cildi karton üzərinə çəkilmiş göy rəngli məxmərdir. Nüsxə 1870-ci ildə Şuşa qalasında köçürülmüşdür. Əlyazma 11 x 17 sm ölçüsündə olub, 47 vərəq həcmindədir.

Mahmud Qacar bin Fəthəli şah Qacar

Füzuli adına Əlyazmalar İnstitutunda Mahmud Qacar bin Fəthəli şah Qacarın (v.1852) "Təzkirat əs-Salatin" adlı əsərinin avtoqraf əlyazma nüsxəsi (M-235) mühafizə edilir. Əsər Pişdadiyan sülaləsindən Fətəli şah Qacar (v.1834) dövrünə qədər şahların tarixindən bəhs edir. Əlyazma qara mürəkkəblə nəstəliq xətti ilə Şərq istehsalı olan boz rəngli ahərlənmiş kağızda fars dilində yazılmışdır. 1b-3a vərəqlərində qırmızı və qara rəngli mürəkkəblə sultanların adı yazılmış fehrist tərtib edilmişdir.3b-4b vərəqlərində ərəb dilində dualar yazılmışdır. Nəfis tərtibatlı əlyazmada başlıqlar qırmızı rəngli mürəkkəblə mavi və yaşıl rənglərlə təzhublənərək yazılmışdır. Cildi karton olub üzərinə güllü laklanmış kağız (qələmdani) yapışdırılmışdır. 115b vərəqində 1859-cu il tarixi və erməni dilində qeyd vardır. Əlyazma 17 x 27 sm ölçüsündə olub, 115 vərəq həcmindədir.

Mahmud Qacar bin Fəthəli şah Qacarın Əlyazmalar İnstitutunda mühafizə edilən digər avtoqraf əsəri "Gülşəni-Mahmud" (M-262) adlı əsəridir. Fətəli şahın övladlarından olan şair və rəssamlar haqqında təzkirədir. Nüsxəyə Qacar nəslinin şairlərinin qəsidə, qəzəl və şeirləri ilə yanaşı həmçinin Mahmud Qacarında şeirləri daxil edilmişdir. Əlyazma qara mürəkkəblə nəstəliq xətti ilə boz rəngli ahərlənmiş kağızda fars dilində yazılmışdır. Mətn qırmızı və göy rənglərə çərçəvəyə alınmışdır. Sərlövhə qızılı, qırmızı, göy rənglərlə təzhiblənmişdir. 1b-4a vərəqlərində müqəddimə, 11b-12a vərəqlərində isə qırmızı rəngli mürəkkəblə Qacarlar nəslinin adları yazılmış mükəmməl fehrist tərtib edilmişdir. Cildi üzərinə güllü laklanmış kağız yapışdırılmış (qələmdani) cilddir. Əlyazma 16 x 26 sm ölçüsündə olub, 77 vərəq həcmindədir. Əsərin yazılma tarixi hicri 1236-cı (m.1820) ildir.

Füzuli adına Əlyazmalar İnstitutunda məşhur xəttatların köçürtdüyü əlyazma əsər nüsxələridə mühafizə edilir. Bunlardan ikisi haqqında məlumat vermək istiyirik. Bunlardan biri Azərbaycanın Təbriz şəhərində yaşamış (1340-1420) məşhur xəttat və nəstəliq xəttinin icad edən **Mirəli ibn İlyas Təbrizinin** köçürtdüyü Mahmud Şəbustərinin (v.1320) "Gülşəni-raz" əsərinin mükəmməl tərtibatlı nüsxəsidir (M-215) . Əlyazma narın nəstəliq xətti ilə Şərq istehsalı ahərlənmiş ağ rəngli kağızda fars dilində yazılmışdır. 1b-2a vərəqləri göy, qırmızı və qızılı rənglərlə, 2b-3a vərəqləri isə qızılı rənglə gül motivləri ilə təzhiblənmişdir. Cildi qəhveyi rəngli dəri olub, üzərinə salbəqli şəmsə və köşəbənd basılmışdır. Əlyazma 13 x 21 sm ölçüsündə olub, 43 vərəq həcmindədir. Digər iki nüsxə isə məşhur xəttat **Sultanəli əl-Məşhədinin** (v.1520) katiblik etdiyi nüsxələrdir. Bu nüsxələrdən biri hicri 899-cu (m.1493) ildə Herat Sultanlığında köçürülmüş Sədi Şirazinin (v.1292) "Bustan" əsərinin nəfis tərtibatlı nüsxəsidir (M-113). Sultanəlinin şöhrəti Xorasan bölgəsinə yayıldıqdan sonra Sultan Hüseyin Baykara onu Herata davət edərək öz kitabxanasında xəttat olaraq vəzifə vermişdir (7). Bu nüsxənin dəyərini artıran onun məhz Heratda, sultan kitabxanasında hazırlanmasıdır. Əlyazma narın nəstəliq xətti ilə Şərq istehsalı olan ağ saya, zər səpməli kağızda fars dilində yazılmışdır. Abidədə ahəngli rəng çalarları ilə sərlövhə tərtib edilmiş və rəngli üç miniatür çəkilmişdir. Mətn qırmızı, qızılı və mavi rənglərlə çəkilmiş iki sütunda yazılmışdır. Cildi qara rəngli dəri olub, üzərinə qızılı rəngli kağızdan hazırlanmış salbəqli şəmsə və zəncirək basılmışdır. Əlyazma 14 x 21 sm ölçüsündə olub, 21 vərəq həcmindədir. Digər nüsxə isə Ağməlik bin Cəmaləddin Firuz Kuhi Əmir Şahi Səbzəvarinin (v.1453) divanının Sultanəli əl-Məşhədi tərəfindən nəstəliq xətti ilə Şərq istehsalı olan noxudu rəngli ahərlənmiş kağızda fars dilində yazılmış nüsxəsidir (M-364). Abidədə ahəngli rəng çalarları ilə sərlövhə tərtib edilmiş və rəngli iki miniatür çəkilmişdir. Mətn qızılı və mavi rənglərlə çəkilmiş iki sütunda yazılmışdır. Cildi üzərinə qızılı rəngli kağızdan hazırlanmış salbəqli şəmsə və zəncirək basılmış qızılı rəngli kartondur. Əlyazma 15,5 x 22,5 sm ölçüsündə olub, 49 vərəq həcmindədir.

Beləliklə, apardığımız tədqiqat zamanı müxtəlif sahələrdə məşhurlaşan şəxslərin əli yazısı ilə köçürülmüş əsərlər aşkar edilmişdir. Bu əlyazmalar hər cəhətdən nadir və orijinal nüsxələdir Belə nüsxələrin tədqiq edilməsi Azərbaycan mədəniyyət və tarixinə yeni səhifələrin açılması baxımından çox dəyərli bir işdir. .

Həmçinin, Azərbaycanın məşhur şəxsiyyətlərinin katiblik etdikləri əlyazma əsərlər çox nadir və nəfis tərtibatlı olub, dünya kitab mədəniyyəti sahəsində xüsusi bir yer tutur.

Ədəbiyyat

1. ASE. [X cilddə] -.Bakı:Azərnəşr, c.VI.- 1982.-608s.
2. Qarabağı Mirzə Yusif. "Məcmueyi-Vaqif və müasirini-digər"Bakı:Azərnəşr,-1999.125 s.
3. Rasim Əfəndi. Azərbaycan İncəsənəti. Bakı:Şərq-Qərb-2007.-160 s.
4. Qarabağnamələr. [VI cilddə] II kitab. Bakı:Şərq-Qərb-2006.-288 s.

5.Süleymanova N. Miniatürlü əlyazmalar kataloqu. Bakı:- 2019.-97s.

6.Есаи Хасан Джалалян Краткая история страны Албанской /1702-1722/Баку :-Элм 1989.45с.

7. https://www.ketebe.org/sanatkar/sultan-ali-el-meshedi-3814

Məqalənin redaksiyaya daxilolma tarixi: 03.12.2023
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 04.12.2023
Məqalənin çapa qəbul olunma tarixi: 06.12.2023